# Azərbaycan Respublikasının dövlət sərhədi haqqında

# Azərbaycan Respublikasının Qanunu

## *I Fəsil. Ümumi müddəalar*

### *Maddə 1. Azərbaycan Respublikasının dövlət sərhədi*

*Azərbaycan Respublikasının dövlət sərhədi Azərbaycan Respublikasının dövlət ərazisinin (quru və su ərazisinin, yerin təkinin, dəniz və hava fəzasının) hüdudlarını müəyyən edən xətt və bu xətt üzrə keçən şaquli səthdir. Azərbaycan Respublikasının dövlət sərhədi Azərbaycan Respublikasının dövlət suverenliyinin ərazi hüdududur.*

### *Maddə 2. Azərbaycan Respublikası dövlət sərhədinin müəyyən edilməsi prinsipləri*

*Azərbaycan Respublikasının dövlət sərhədi Azərbaycan Respublikası Ali Sovetinin qərarları ilə müəyyən edilir.*

*Azərbaycan Respublikası dövlət sərhədlərinin dəyişdirilməsi yalnız referendum yolu ilə həll oluna bilər.*

*Azərbaycan Respublikasının həmsərhəd dövlətlərlə rəsmiləşdirilməyən sərhədləri dövlətlərarası müqavilə ilə təsbit edilir.*

*Azərbaycan Respublikasının dövlət sərhədi müəyyən edilərkən və onun keçdiyi xətt dəyişdirilərkən, habelə həmsərhəd dövlətlərlə sərhəd məsələləri nizama salınarkən aşağıdakı prinsiplər rəhbər tutulur:*

- *Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsi;*
- *Azərbaycan Respublikasının dövlət suverenliyinin, ərazi bütövlüyünün və dövlət sərhədinin toxunulmazlığının təmin edilməsi;*
- *Həmsərhəd dövlətlərlə qarşılıqlı surətdə faydalılıq əsasında hərtərəfli əməkdaşlıq;*
- *sərhəd mübahisələrinin sülh yolu ilə həll edilməsi».*

### *Maddə 3. Azərbaycan Respublikası dövlət sərhədinin təyin edilməsi*

Azərbaycan Respublikasının bağladığı dövlətlərarası müqavilələrdə başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının dövlət sərhədi belə müəyyən edilir:

1) quruda — relyefin səciyyəvi nöqtələri və xətləri, aydın görünən səmt göstəriciləri üzrə;

2) Xəzər dənizində — Azərbaycan Respublikasının ərazi sularının xarici kənarı üzrə;

3) çaylarda (kiçik çaylarda) — onların ortası və ya çayın əsas qolunun ortası üzrə; göllərdə və başqa sututarlarda — Azərbaycan Respublikası sərhədinin bu gölün və ya başqa sututarın sahillərinə yanaşdığı iki nöqtəni birləşdirən düz xətt üzrə.

Azərbaycan Respublikasının çay (kiçik çay), göl və ya başqa sututar boyunca uzanan dövlət sərhədi bunların sahillərinin konfiqurasiyası dəyişdikdə və ya çayın (kiçik çayın) yatağı yerini dəyişdikdə dəyişmir;

4) su qovşaqlarının dəryaçalarında və başqa süni sututarlarda — Azərbaycan Respublikası dövlət sərhədinin dəryaçalar və sututarlar doldurulanadək ərazidən keçmiş xətti üzrə;

5) çayların (kiçik çayların) sərhədboyu hissələrində salınmış dəmir yolu və avtomobil yolu körpülərində, bəndlərdə və başqa qurğularda-Azərbaycan Respublikasının dövlət sərhədinin suyun harasından keçməsindən asılı olmayaraq bu qurğuların ortası və ya texnoloji oxu üzrə.

### *Maddə 4. Azərbaycan Respublikası dövlət sərhədinin nişanlanması*

Azərbaycan Respublikasının dövlət sərhədi ərazidə aydın görünən sərhəd nişanları ilə nişanlanır.

Sərhəd nişanlarının formaları, ölçüləri və qurulması qaydası Azərbaycan Respublikasının qanunvericiliyi və Azərbaycan Respublikasının dövlətlərarası müqavilələri ilə müəyyən edilir.

### *Maddə 5. Azərbaycan Respublikasının ərazi suları*

Azərbaycan Respublikasının ərazi sularına aşağıdakılar aiddir:

1) Xəzər dənizinin Azərbaycan Respublikası ilə həmsərhəd dövlətlərin sərhədləri arasındakı suları;

2) sərhədboyu çayın və başqa sututarların Azərbaycan Respublikasındakı sahilindən həmsərhəd dövlətlə dövlət sərhədinədək olan suları.

### *Maddə 6. Azərbaycan Respublikasının daxili suları*

Azərbaycan Respublikasının daxili sularına aşağıdakılar aiddir:

1) Azərbaycan Respublikası limanlarının hidrotexniki və başqa qurğularının dənizə doğru ən uzaq nöqtələrindən keçən xətlə məhdudlaşmış liman suları;

2) sahilləri tamamilə Azərbaycan Respublikasına məxsus olan körfəzlərin, buxtaların suları.

### *Maddə 7. Azərbaycan Respublikasının dövlət sərhədi haqqında qanunvericilik*

*Azərbaycan Respublikasının dövlət sərhədi haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, başqa qanunvericilik aktlarından, Azərbaycan Respublikasının dövlətlərarası müqavilələrindən ibarətdir.*

## *II Fəsil. Azərbaycan Respublikasının dövlət sərhədi rejimi*

### *Maddə 8. Azərbaycan Respublikasının dövlət sərhədi rejiminin müəyyən edilməsi*

Azərbaycan Respublikasının dövlət sərhədi rejimi-Azərbaycan Respublikası dövlət sərhədinin keçilməsi qaydasını, xarici təyyarələrin və başqa uçuş aparatlarının Azərbaycan Respublikasının hava fəzasına girməsi və orada olması, xarici qeyri-hərbi gəmilərin və hərbi gəmilərin Azərbaycan Respublikasının ərazi sularında üzməsi və olması, xarici qeyri-hərbi gəmilərin və hərbi gəmilərin Azərbaycan Respublikasının daxili sularına və limanlarına girməsi və orada olması, Azərbaycan Respublikası dövlət sərhədinin lazımi qaydada saxlanması, Azərbaycan Respublikasının dövlət sərhədində müxtəlif işlərin görülməsi, mədən fəaliyyəti və başqa fəaliyyət göstərilməsi qaydası bu Qanunla, Azərbaycan Respublikasının qanunvericilik aktları və Azərbaycan Respublikasının dövlətlərarası müqavilələri ilə müəyyən edilir.

### *Maddə 9. Azərbaycan Respublikası dövlət sərhədinin keçilməsi*

Azərbaycan Respublikasının dövlət sərhədindən keçən dəmiryolu, avtomobil, dəniz, çay, hava nəqliyyatı əlaqəsini və başqa əlaqələri *sərhəd qoşunları müvafiq icra hakimiyyəti orqanının* müəyyən etdiyi buraxılış məntəqələrində Azərbaycan Respublikasının qanunvericiliyinə və Azərbaycan Respublikasının dövlətlərarası müqavilələrinə uyğun olaraq həyata keçirir. Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrində *sərhəd qoşunlarının* nəzarət-buraxılış məntəqələri və gömrük idarələri yaradılır.

Qeyri-hərbi və hərbi dəniz gəmiləri Azərbaycan Respublikasının dövlət sərhədini bu Qanuna, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına, habelə Azərbaycan Respublikasının səlahiyyətli orqanları tərəfindən verilən və «Dəniz gəmiçilərinə bildirişlər»də dərc edilən qaydalara müvafiq surətdə keçirlər.

Hava gəmiləri Azərbaycan Respublikasının dövlət sərhədini bu Qanuna, habelə Azərbaycan Respublikasının səlahiyyətli orqanları tərəfindən qəbul edilən və «Aeronaviqasiya məlumatları məcmuəsi» ndə dərc edilən qaydalara uyğun olaraq xüsusi ayrılmış hava uçuş dəhlizləri vasitəsilə keçirlər. Hava dəhlizlərindən kənarda Azərbaycan Respublikası dövlət sərhədinin üzərindən uçub keçməyə yalnız Azərbaycan Respublikasının səlahiyyətli orqanlarının xüsusi icazəsi ilə yol verilir.

### *Maddə 10. hava gəmilərinin uçması və enməsi*

Hava gəmiləri Azərbaycan Respublikasından yola düşərkən beynəlxalq uçuşlar üçün açıq olan, *sərhəd qoşunları*nun nəzarət-buraxılış məntəqələri və gömrük idarələri olan aeroportlardan (aerodromlardan) uçur, Azərbaycan Respublikasına gəldikdən sonra həmin aeroportlara (aerodromlara) enirlər.

Hava gəmilərinin uçmasının və enməsinin başqa qaydasını yalnız *müvafiq icra hakimiyyəti orqanı* müəyyən edir.

### *Maddə 11. Azərbaycan Respublikası dövlət sərhədinin keçilməsi zamanı nəzarət*

Azərbaycan Respublikasının dövlət sərhədini keçən şəxslər, nəqliyyat vasitələri, yüklər və başqa əmlak üzərində sərhəd və gömrük nəzarəti həyata keçirilir. *Müvafiq icra hakimiyyəti orqanı* Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrində *sərhəd qoşunlarının* nəzarət-buraxılış məntəqələrini, gömrük, sanitariya-karantin, baytarlıq, fitosanitariya və sənətşünaslıq idarələri (nəzarətçi qrupları) yaradır.

*Müvafiq icra hakimiyyəti orqanı* Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd, gömrük, sanitariya-karantin, baytarlıq və fitosanitariya nəzarətini, Azərbaycan Respublikasından bədii, tarixi və başqa mədəni sərvətlərin aparılmasına nəzarəti həyata keçirmək üçün lazımi binalar ucaldır, sərhəd mühafizə dəstəsinin nəzarət-buraxılış məntəqələrini, gömrük idarələrini və şəxslərin, nəqliyyat vasitələrinin, yüklərin və başqa əmlakın Azərbaycan Respublikası dövlət sərhədindən keçməsinə nəzarət edən digər idarələri yerləşdirmək üçün xidmət otaqları ayırır.

Şəxslərin, nəqliyyat vasitələrinin, yüklərin və başqa əmlakın Azərbaycan Respublikasının dövlət sərhədindən sadələşdirilmiş qaydada buraxılışı məntəqələri Azərbaycan Respublikasının əlaqədar *mərkəzi icra hakimiyyəti orqanlarının* təqdimatına əsasən *müvafiq icra hakimiyyəti orqanının* qərarı ilə müəyyən edilir. Sadələşdirilmiş buraxılış qaydası Azərbaycan Respublikasının dövlətlərarası müqavilələrinə müvafiq surətdə müəyyən edilir.

*Şəxslərin, nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.*

### *Maddə 12. Şəxslərin, nəqliyyat vasitələrinin və digər əmlakın Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılması*

Azərbaycan Respublikasının dövlət sərhədini keçən şəxsləri Azərbaycan Respublikasına gəlmək və ya Azərbaycan Respublikasından getmək hüququ barəsində etibarlı sənədlər əsasında *sərhəd qoşunları* buraxır.

Nəqliyyat təşkilatlarının vəzifəli şəxsləri *və nəqliyyat vasitələrinin sahibləri sərhəd qoşunları gömrük və ya digər aidiyyəti orqanların* nümayəndələrinin tələbi ilə plomblanmış vaqonları, avtomobilləri, konteynerləri, gəmi anbarlarını və xaricə gedən dəniz və hava gəmilərinin başqa yerlərini *və yüklərini* açmağa borcludurlar.

Plomblanmış vaqonları, avtomobilləri, konteynerləri, gəmi anbarlarını və nəqliyyat vasitələrinin rəsmiləşdirilmiş xüsusi buraxılışı olan yüklərin vurulduğu başqa yerlərini *sərhəd qoşunları və ya digər aidiyyəti orqanlar* bu şərtlə açmırlar ki, qablar, plomblar və möhürlər zədələnməmiş olsun, habelə bunlarda Azərbaycan Respublikasının dövlət sərhədlərini pozanların və ya Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından aparılması qadağan edilmiş əşyaların və materialların gizlədilməsi əlamətləri olmasın.

Azərbaycan Respublikasının dövlətlərarası müqavilələrinə uyğun olaraq Azərbaycan Respublikasının dövlət sərhədindən şəxslərin, nəqliyyat vasitələrinin, yüklərin və başqa əmlakın buraxılması üçün sadələşdirilmiş qayda qoyula bilər.

*Şəxslər, nəqliyyat vasitələri, yüklər və digər əmlak, qanunvericiliklə müəyyən edilmiş qaydada rəsmiləşdirilmiş sənədlər olduqda müvafiq icra hakimiyyəti orqanı tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılırlar.*

*Azərbaycan Respublikasının dövlət sərhədindən keçmək üçün etibarlı sənədlərə malik olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər qanunvericilikdə nəzərdə tutulmuş əsaslar mövcud olduqda, Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılmaya bilərlər.*

### *Maddə 13. Azərbaycan Respublikasının ərazi sularından dinc məqsədlə keçid*

Azərbaycan Respublikasının ərazi sularından dinc məramlı keçid Azərbaycan Respublikasının daxili sularına girmədən ərazi sularından keçmək və ya Azərbaycan Respublikasının daxili sularına və limanlarına girmək, yaxud bunlardan açıq dənizə çıxmaq məqsədi daşıyır.

Xarici qeyri-hərbi gəmilər Azərbaycan Respublikasının ərazi sularından dinc məqsədlə keçmək hüququndan Azərbaycan Respublikasının qanunvericiliyinə və Azərbaycan Respublikasının dövlətlərarası müqavilələrinə müvafiq surətdə istifadə edirlər.

Xarici qeyri-hərbi gəmilər dinc məqsədlə keçid zamanı adi naviqasiya səmtində və ya Azərbaycan Respublikasının səlahiyyətli orqanları tərəfindən tövsiyə edilən səmtdə, habelə dəniz dəhlizləri ilə, yaxud hərəkətin ayrılması sxemlərinə uyğun səmtdə üzməlidirlər.

Dinc keçid qaydalarını pozan xarici qeyri-hərbi gəminin kapitanı Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyır.

Xarici hərbi gəmilər, habelə sualtı qayıqlar dinc məqsədlə Azərbaycan Respublikasının ərazi sularından *müvafiq icra hakimiyyəti orqanının* müəyyən etdiyi qaydada keçirlər. Bu zaman sualtı qayıqlar, digər sualtı nəqliyyat vasitələri suyun üstü ilə öz bayraqları altında üzməlidirlər.

### *Maddə 14. Xarici qeyri-hərbi və hərbi gəmilərin Azərbaycan Respublikasının daxili sularına və limanlarına girməsi qaydası*

Xarici qeyri-hərbi gəmilər Azərbaycan Respublikasının bu gəmilər üçün açıq olan reydlərinə və limanlarına girə bilərlər. Xarici qeyri-hərbi gəmilər üçün açıq olan reydlərin və limanların siyahısı, bu reydlərə və limanlara girmək və orada olmaq-yük və sərnişin əməliyyatları aparmaq qaydası, gəmilərin sahillə əlaqəsi, gəmi heyəti üzvlərinin sahilə çıxması, gəmi heyətinin üzvü olmayan şəxslərin gəmilərə gəlməsi qaydaları, xarici qeyri-hərbi gəmilərin Azərbaycan Respublikasının daxili sularına və limanlarına girməsi və orada olması ilə əlaqədar digər qaydalar Azərbaycan Respublikasının qanunvericiliyi ilə və «Dəniz gəmiçilərinə bildirişlər»də dərc edilən qaydalarla müəyyən olunur.

Başqa qayda nəzərdə tutulmadıqda xarici hərbi gəmilər Azərbaycan Respublikasının daxili sularına və limanlarına *müvafiq icra hakimiyyəti orqanının* qabaqcadan verdiyi icazəyə və onların daxili sulara və limanlara girməsinin «Dəniz gəmiçilərinə bildirişlər»də dərc edilən qaydalarına müvafiq surətdə girirlər.

### *Maddə 15. Xarici qeyri-hərbi və hərbi gəmilərin Azərbaycan Respublikası sularında naviqasiya qaydalarına və digər qaydalara riayət etmək vəzifəsi*

Xarici qeyri-hərbi və hərbi gəmilər Azərbaycan Respublikasının ərazi və daxili sularında üzərkən və olarkən radio rabitəsi, naviqasiya, liman, gömrük, sanitariya qaydalarına və digər qaydalara riayət etməlidirlər.

### *Maddə 16. Xarici qeyri-hərbi və hərbi gəmilərin Azərbaycan Respublikası sularında ovçuluq, tədqiqat və axtarış fəaliyyətinin qadağan edilməsi*

Azərbaycan Respublikasının ərazi və daxili sularında xarici qeyri-hərbi və hərbi gəmilərin ovçuluq, tədqiqat və axtarış fəaliyyəti qadağan edilir; bu fəaliyyətin

Azərbaycan Respublikası səlahiyyətli orqanlarının icazəsi ilə, yaxud Azərbaycan Respublikasının dövlətlərarası müqavilələri əsasında göstərildiyi hallar istisna təşkil edir.

### *Maddə 17. Azərbaycan Respublikası sularının ayrı-ayrı rayonlarında qeyri-hərbi və hərbi gəmilərin üzməsinin və olmasının qadağan edilməsi*

Azərbaycan Respublikasının səlahiyyətli orqanlarının qərarı ilə Azərbaycan Respublikasının ərazi və daxili sularında elə rayonlar müəyyən edilə bilər ki, orada qeyri-hərbi və hərbi gəmilərin üzməsi və olması qadağan edilsin. Belə rayonların müəyyən edilməsi «Dəniz gəmiçilərinə bildirişlər»də elan olunur.

### *Maddə 18. Azərbaycan Respublikasının dövlət sərhədində təsərrüfat fəaliyyətinin qaydası*

Sərhəd çaylarının, göllərinin və digər sututarlarının Azərbaycan Respublikasına məxsus hissəsində gəmiçilik, sudan istifadənin başqa növləri, müxtəlif hidroqurğular tikilməsi, digər işlərin görülməsi, Azərbaycan Respublikasının dövlət sərhədində torpaqlardan, meşələrdən, heyvanlar aləmindən istifadə edilməsi, filizçıxarma, geoloji axtarışlar və digər təsərrüfat fəaliyyəti Azərbaycan Respublikasının qanunlarına, beynəlxalq müqavilələrə uyğun olmalı və Azərbaycan Respublikasının dövlət sərhədində lazımi qayda təmin olunması şərtilə həyata keçirilməlidir.

Azərbaycan Respublikasının dövlət sərhədində hər növ təsərrüfat fəaliyyətinin qaydası Azərbaycan Respublikasının səlahiyyətli orqanları tərəfindən müəyyən edilir və bu fəaliyyət *sərhəd qoşunları* ilə razılıq əsasında həyata keçirilir.

### *Maddə 19. Yoluxucu xəstəliklərin yayılması təhlükəsi olduqda Azərbaycan Respublikasının dövlət sərhədindən keçidin müvəqqəti dayandırılması. Karantin*

Azərbaycan Respublikasının və ya xarici dövlətin ərazisində xüsusilə qorxulu yoluxucu xəstəliklərin yayılması təhlükəsi olduqda təhlükəli sahələrdə *müvafiq icra hakimiyyəti orqanının* qərarı ilə Azərbaycan Respublikasının dövlət sərhədindən keçid müvəqqəti məhdudlaşdırıla və ya dayandırıla bilər, ya da Azərbaycan Respublikasının dövlət sərhədindən keçən adamlar, heyvanlar, yüklər, toxum, əkin materialları, heyvan və bitki mənşəli digər məhsullar üçün karantin qoyula bilər.

Azərbaycan Respublikasının ərazisini yoluxucu heyvan xəstəliklərinin yayılmasından qorumaq üçün Azərbaycan Respublikasının dövlət sərhədi boyunca mal-qara saxlanması və otarılması qadağan edilən profilaktika zolağı müəyyən olunur. Bu zolağın enini və baytarlıq sanitariya rejimini *müvafiq icra hakimiyyəti orqanı* müəyyən edir.

### *Maddə 20. Azərbaycan Respublikasının dövlət sərhədini pozanlar*

Aşağıdakılar Azərbaycan Respublikasının dövlət sərhədini pozanlar sayılır:

1) Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən kənarda hər hansı vasitə ilə Azərbaycan Respublikasının dövlət sərhədini keçmiş və ya keçməyə cəhd göstərmiş, ya da sərhədkeçmə qaydalarını *pozmaqla, o cümlədən gizli şəkildə, saxta və ya özgənin sənədləri ilə* Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrində sərhədi keçmiş və ya keçməyə cəhd göstərmiş şəxslər;

2) Azərbaycan Respublikasından qanunsuz getmək məqsədilə xarici nəqliyyat vasitələrinə və ya Azərbaycan Respublikasının xaricə gedən nəqliyyat vasitələrinə minmiş və ya minməyə cəhd göstərmiş şəxslər;

3) Azərbaycan Respublikasının ərazi və daxili sularına, habelə sərhəd çaylarının, göllərinin və digər sututarlarının Azərbaycan Respublikasına məxsus hissəsinə girmək qaydalarını pozaraq həmin sulara girən xarici qeyri-hərbi və hərbi gəmilər;

4) Azərbaycan Respublikasının sularında dövlət sərhədini sualtı vəziyyətdə keçən və ya Azərbaycan Respublikasının sularında sualtı vəziyyətdə olan və qalan xarici sualtı qayıqlar və digər sualtı nəqliyyat vasitələri;

5) Azərbaycan Respublikasının səlahiyyətli orqanlarının müvafiq icazəsi olmadan Azərbaycan Respublikasının dövlət sərhədini keçmiş və ya Azərbaycan Respublikasının dövlət sərhədini uçub keçmək qaydalarını başqa şəkildə pozmuş hava gəmiləri və digər uçuş aparatları.

Müvafiq icazə olmadan və ya müəyyən edilmiş qaydanı pozmaqla Azərbaycan Respublikasının dövlət sərhədini hər hansı başqa texniki və ya digər vasitələrlə keçmək də sərhədi pozmaq deməkdir.

### *Maddə 21. Azərbaycan Respublikasının sərhəd nümayəndələri*

Azərbaycan Respublikasının dövlət sərhədi rejiminin qorunması ilə əlaqədar məsələləri həll etmək, habelə sərhəd münaqişələrini nizama salmaq üçün *müvafiq icra hakimiyyəti orqanı sərhəd qoşunları*nun zabitləri sırasından Azərbaycan Respublikası dövlət sərhədinin müəyyən hissələri üzrə Azərbaycan Respublikasının sərhəd nümayəndələrini təyin edir.

Azərbaycan Respublikası dövlət sərhədinin Azərbaycan Respublikasının xüsusi təyin edilmiş sərhəd nümayəndələri olmayan hissələrində onların funksiyalarını *sərhəd qoşunları*nun müvafiq hissələrinin komandirləri yerinə yetirirlər.

Azərbaycan Respublikasının sərhəd nümayəndələri Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikasının dövlətlərarası müqavilələrini, habelə Azərbaycan Respublikasının səlahiyyətli orqanlarının qəbul etdikləri aktları rəhbər tuturlar.

Sərhəd nümayəndələri tərəfindən nizama salınmayan məsələlər diplomatik qaydada həll edilir.

## *III Fəsil. Sərhədboyu rejim*

### *Maddə 22. Sərhədboyu zona və sərhədboyu zolaq*

Azərbaycan Respublikasının dövlət sərhədində lazımi qaydanı təmin etmək məqsədilə *müvafiq icra hakimiyyəti orqanı* sərhədboyu zona və sərhədboyu zolaq müəyyən edir.

Sərhədboyu zonanın hüdudlarını *müvafiq icra hakimiyyəti orqanı* sərhədyanı rayonların ərazisində, yerli şəraitdən asılı olaraq müəyyən edir. Müəyyən edilmiş sərhədboyu zonanın tərkibinə Azərbaycan Respublikasının ərazi və daxili suları da aid edilir.

Sərhədboyu zonada psixonevroloji dispanserlərin (xəstəxanaların) və islah-əmək müəssisələrinin yerləşdirilməsi qadağandır.

Eni 1 kilometrədək olan sərhədboyu zolaq bilavasitə Azərbaycan Respublikasının dövlət sərhədi xətti boyunca quru hissələrdə və ya sərhədboyu çayların, göllərin və başqa sututarların sahilləri boyunca müəyyən edilir. Azərbaycan Respublikası dövlət sərhədinin qorunması naminə *müvafiq icra hakimiyyəti orqanı* texniki çəpərlərin düzəldilməsi, sərhədboyu yolların, körpülərin çəkilməsi, başqa obyektlərin tikilməsi üçün *sərhəd qoşunları*nun müddətsiz istifadəsinə həm sərhədboyu zolaqda, həm də onun hüdudlarından kənarda 30-50 metr enində lazımi torpaq zolaqları, habelə Azərbaycan Respublikasının dövlət sərhədi boyunca 5 metrlik zolaq verir.

### *Maddə 23. Sərhədboyu rejim*

Sərhədboyu zonada və sərhədboyu zolaqda sərhədboyu rejim qoyulur; sərhədboyu rejim bu Qanuna və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğun olaraq Azərbaycan Respublikası vətəndaşlarının və başqa şəxslərin gəlməsi, müvəqqəti yaşaması, bir yerdən başqa yerə getməsi, işlərin görülməsi, motorlu və motorsuz gəmilərin yanalma körpülərində uçota alınması və saxlanması, Azərbaycan Respublikasının ərazi və daxili sularında onların üzməsi və hərəkət etməsi qaydalarını tənzimləyir.

### *Maddə 24. Sərhədboyu zonaya və sərhədboyu zolağa daxilolma. İşlərin görülməsi*

1) Sərhədboyu zonada daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının pasportunda daxili işlər orqanları xüsusi ştamp vururlar. Belə ştamp vurulmuş pasportu olan vətəndaşlar Azərbaycan Respublikasının ərazisində bütün sərhədboyu zonanın hüdudları daxilində hərəkət edə bilərlər;

2) ali, orta ixtisas məktəblərinin və başqa tədris müəssisələrinin sərhədboyu zonadakı yaşayış məntəqələrinin sakinləri olmuş tələbələri və şagirdləri bu yaşayış məntəqələrinə onların tədris müəssisələrində oxumasını təsdiq edən sənədlər və yerli idarəetmə orqanlarının arayışlarına sərhədboyu zonanın yaşayış məntəqələrindən onların təhsil almağa getdiyini təsdiq edən arayışlara əsasən gedirlər;

3) sərhədboyu zonaya girmək və orada olmaq hüququna dair buraxılışları daxili işlər orqanları Azərbaycan Respublikası vətəndaşlarının yaşayış yeri üzrə, onların şəxsi ərizələri, vəsatətləri və ya bu ərizələrin və vəsatətlərin əsaslı olduğunu təsdiq edən müvafiq sənədlər əsasında verirlər; valideynləri ilə və ya müşayiətçi şəxslərlə birlikdə sərhədboyu zonaya gedən 16 yaşınadək uşaqlar bu şəxslərin buraxılışlarına daxil edilir;

4) sərhədboyu zonada yaşamayan vətəndaşlar qrupu sərhədboyu zonaya getdikdə onlar üçün buraxılış qrupun rəhbərinin adına verilə bilər. Bu zaman buraxılışda onunla gedən şəxslərin sayı göstərilməlidir.

Belə hallarda onların getdiyi yerdəki əlaqədar müəssisələrin, idarələrin və ya təşkilatların vəzifəli şəxslərinin imzası və gerbli möhürü ilə təsdiqlənmiş və daxili işlər orqanlarında qeydə alınmış adbaad siyahılar buraxılışa əlavə edilir. Siyahılarda göstərilən şəxslər sərhədboyu zonaya onların şəxsiyyətini təsdiq edən sənədlərə əsasən daxil olurlar;

5) sərhədboyu zolaqda və dövlət sərhədi ilə *sərhəd qoşunları*nun texniki çəpər xətti arasındakı ərazi zolağında daimi yaşamayan şəxslər oraya yalnız istehsalat və ya xidmət zərurəti olduqda buraxılırlar. Həmin vətəndaşların göstərilən yerlərə buraxılması və orada müvəqqəti qalması qaydasını, habelə orada sudan istifadə edilməsi, kənd təsərrüfatı işləri və başqa işlər görülməsi qaydasını *sərhəd qoşunları* yerli idarəetmə orqanları ilə razılığa əsasən müəyyən edir.

Müəssisələrin, idarələrin, təşkilatların rəhbərləri görüləcək işlərin vaxtı və yeri haqqında *sərhəd qoşunları* bölmələrinə qabaqcadan məlumat verməli, müəyyənləşdirilmiş sərhədboyu rejimə işləyən vətəndaşlar tərəfindən əməl olunmasını təmin etməlidirlər;

6) sərhədboyu zonada yerləşən müəssisə, idarə, təşkilat rəhbərlərinin sərhədboyu zonaya daxil olmağa və orada yaşamağa icazəsi olmayan şəxsləri işə götürməsi qadağandır;

7) sərhədboyu zonada yerləşən yaşayış məntəqələrinə müəyyən edilmiş qaydada ezam olunan vətəndaşlar həmin zonaya onların şəxsiyyətini təsdiq edən sənədlərə və ezamiyyət sənədlərinə əsasən gedirlər, həm də ezamiyyət sənədləri onların getdiyi yerdəki daxili işlər orqanlarında hökmən qeydə alınmalıdır;

8) hərbi qulluqçular və prokurorluq orqanlarının prokurorları müstəntiqləri sərhədboyu zonaya onların şəxsiyyətini təsdiq edən sənədlərə və xidməti göstərişlərə, ezamiyyət və məzuniyyət sənədlərinə,yol vəsiqələrinə əsasən daxil olurlar;

9) müəssisələrin və təşkilatların yerli və beynəlxalq daşımaları həyata keçirən, yaxud dəmir yolların və şosse yollarının, müvafiq nəqliyyat vasitələrinin, habelə neft kəmərlərinin, qaz kəmərlərinin, rabitə və elektrik xəttlərinin təmirini və istismarını təmin edən daimi heyəti sərhədboyu zonaya xidmət zərurəti olduqda, bu heyət üçün müəyyən edilmiş əmək — vəzifələri və iş sahələri (reyslər, marşrutlar) çərçivəsində, özlərinin xidmət — vəsiqələrinə əsasən daxil olurlar;

10) sərhədboyu zonada yerləşən sanatoriyalara, istirahət evlərinə, pansionatlara, turist bazalarına və digər müalicə-sağlamlaşdırma idarələrinə gedən vətəndaşlar onların şəxsiyyətini təsdiq edən sənədlərə və yaşayış yeri üzrə daxili işlər orqanlarında qeydə alınmış putyovkalara (kursovkalara) əsasən daxil olurlar;

11) Azərbaycan Respublikasında daimi yaşayan və ya respublikaya müvəqqəti gələn əcnəbi vətəndaşlar və vətəndaşlığı olmayanı şəxslər ümumən müəyyən edilmiş qaydada sərhədboyu zonaya daxil olur və orada qalırlar;

12) nəqliyyat müəssisələri və təşkilatları şəxsiyyəti təsdiq edən sənədlər və sərhədboyu zonaya daxil olmaq hüququna dair buraxılışlar təqdim edildikdən sonra vətəndaşlara sərhədboyu zonada yerləşən məntəqələrə biletlər satır və xidməti yol sənədləri verirlər;

sərhədboyu zonaya daxil olmaq hüququna dair müvafiq sənədləri olmayan sərnişinlərə bilet satılmasına yol vermiş şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə məsuliyyət daşıyırlar;

13) sərhədboyu zonadan qatarlarda, avtobuslarda tranzitlə gedən sərnişinlərin tranzitlə keçib getdikləri sərhədboyu zonada dayanması qadağandır;

14) sərhədboyu zonada ov qaydası *sərhəd qoşunları* ilə razılaşdırılır. Sərhədboyu zolaqda, eləcə də Azərbaycan Respublikasının dövlət sərhədi ilə *sərhəd qoşunlarının* texniki çəpərlər xətti arasındakı ərazi zolağında ov etmək qadağandır;

15) sərhədboyu zolaqda və Azərbaycan Respublikasının dövlət sərhədi ilə *sərhəd qoşunlarının* texniki çəpər xətti arasındakı ərazi zolağında hər cür tikinti, meşəqırma və başqa işlər *sərhəd qoşunlarının* razılığı ilə həyata keçirilir; Azərbaycan Respublikasının dövlətlərarası müqavilələrinə əsasən aparılan tikinti işləri və təbii fəlakətlərin ləğv edilməsi, xüsusilə təhlükəli yoluxucu xəstəliklərə qarşı mübarizə tədbirləri görülməsi ilə bağlı olan işlər istisna təşkil edir.

*16) sərhədboyu zolaqda və bilavasitə dövlət sərhədinin yaxınlığında lazımi icazəsi olmadan və ya belə icazə olduqda, lakin müəyyən edilmiş qaydaları pozmaqla təsərrüfat və digər işlərin aparılması, mal-qaranın saxlanılması və otarılması, kütləvi-ictimai tədbirlərin keçirilməsi qadağandır.*

### *Maddə 25. Azərbaycan Respublikasının ərazi və daxili sularında sərhədboyu rejimin xüsusiyyətləri*

1) Azərbaycan Respublikasının sərhədboyu zonasında yerləşən ərazi və daxili sularına, habelə oradakı adalara *sərhəd qoşunları* nəzarət edir:

2) sərhədboyu zonanın ərazisində müəssisələrə, idarələrə, təşkilatlara və vətəndaşlara məxsus balıqçılıq, ovçuluq, elmi-tədqiqat, idman gəmiləri, motorlu və motorsuz başqa gəmilər belə gəmilərə nəzarət edən orqanlarda müəyyənləşdirilmiş qaydada qeydə alınmaqdan əlavə, *sərhəd qoşunlarının* ən yaxın bölməsində də qeydə alınmalı, gəmi sahibinin qeydiyyat sənədlərinə bu barədə xüsusi ştamp vurulmalıdır;

göstərilən gəmilər müəyyən edilmiş yanalma körpülərinə, yerləşmə məntəqələrinə təhkim edilməli və dayanacaq üçün daimi yerlərə malik olmalıdır;

bu gəmilərin mənsubiyyətini nişanlamaq üçün onların havadan görünən yerlərinə tanınma nişanları vurulur, gövdələrinə isə müəyyənləşdirilmiş qaydada qeydiyyat nömrələri yazılır;

3) vətəndaşları *sərhəd qoşunları* tərəfindən qorunan dəniz sahilboyuna, sərhədboyu çayların, göllərin və başqa sututarların sahillərinə müəyyən müddət üçün gətirmiş motorlu və motorsuz gəmilərin sahibləri öz gəmilərini *sərhəd qoşunlarının* ən yaxındakı bölməsində qeydə aldırmalı və təyin edilmiş yanalma körpülərində və yerləşmə məntəqələrində saxlamalıdır;

4) təyin edilmiş yanalma körpülərindən, yerləşmə məntəqələrindən və xüsusi ayrılmış başqa yerlərdən kənarda motorlu və motorsuz gəmilərin saxlanması və dayanması,

adamların minib-düşməsi, yük vurulub-boşaldılması, fəlakət və qəza halları istisna olmaqla, qadağandır;

5) sənədlərin rəsmiləşdirilməsi qaydasını, motorlu və motorsuz gəmilərin dənizə, sərhədboyu çayların, göllərin və başqa sututarların sularına çıxması qaydasını, Azərbaycan Respublikasının ərazi və daxili sularında hərəkəti qaydasını, eləcə də göstərilən gəmilər üçün yanalma körpülərinin və yerləşmə məntəqələrinin düzəldilməsi qaydasını *müvafiq icra hakimiyyəti orqanı sərhəd qoşunlarının* təqdimatı üzrə müəyyən edir;

6) sərhədboyu çaylarda, göllərdə və başqa sututarlarda balıq ovu *sərhəd qoşunlarının* icazəsi ilə, Azərbaycan Respublikasının dövlətlərarası müqavilələrinə və *müvafiq icra hakimiyyəti orqanının* müəyyən etdiyi qaydalara müvafiq surətdə aparılır;

7) dənizə və sərhədboyu çayların, göllərin başqa sututarların sularına çıxmağa qeydə alınmış motorlu və motorsuz gəmilərdə, yalnız günün işıqlı vaxtında, *sərhəd qoşunlarının* verdiyi vəsiqələr üzrə, təyin edilmiş yanalma körpülərinə və yerləşmə məntəqələrinə qaranlıq düşənədək qayıtmaq şərti ilə yol verilir;

dənizə çıxarkən sahildən iki milədək uzaqlaşmağa yol verilir;

8) *sərhəd qoşunlarının* qoruduğu dəniz sahilboyunda, sərhədboyu çayların, göllərin, başqa sututarların sahillərində çimmək yerlərini, onların düzəldilməsi və işlədilməsi qaydasını yerli idarəetmə orqanları *sərhəd qoşunları* ilə razılaşdırmaqla müəyyən edirlər;

9) Azərbaycan Respublikasının ərazi və daxili sularında *sərhəd qoşunları* gəmilərinin (katerlərinin) zərurət olduqda gecə vaxtı, fənəri yandırmadan üzməsinə icazə verilir. Belə hallarda gəmilərin (katerlərin) komandirləri başqa gəmilərlə toqquşmanın qarşısını alan tədbirlər görməlidirlər.

### *Maddə 26. Azərbaycan Respublikası Dövlət sərhədinin buraxılış məntəqələrində rejim*

Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrində *sərhəd qoşunları* nəzarət-buraxılış məntəqələrinin və gömrük idarələrinin xidmət fəaliyyəti üçün şərait yaratmaq və bu şəraiti saxlamaq məqsədilə şəxslərin və nəqliyyat vasitələrinin həmin məntəqələrdə olması və hərəkət etməsi qaydasını, habelə şəxslərin, nəqliyyat vasitələrinin, yüklərin və başqa əmlakın Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılması ilə bağlı digər fəaliyyətin qaydasını tənzimləyən rejim müəyyən edilir.

Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrində rejimi tənzimləyən qaydaları *müvafiq icra hakimiyyəti orqanı* müəyyən edir. Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılışın həyata keçirildiyi aeroportların (aerodromların), dəniz limanlarının, dəmiryolu və avtomobil vağzallarının və stansiyalarının rəisləri *müvafiq icra hakimiyyəti orqanının* müəyyənləşdirdiyi qaydalara əsasən və həmin qaydaların icrası üçün yerli şəraiti nəzərə alaraq, *sərhəd qoşunları* və daxili işlər orqanları ilə razılaşdırmaqla öz əmrlərini (təlimatlarını) verirlər.

*Müvafiq icra hakimiyyəti orqanı* Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələri sayılan aeroportlarda, vağzallarda, dəniz və çay limanlarında dəmiryol və avtomobil vağzallarında və stansiyalarında *sərhəd qoşunları* və gömrük nəzarətinin həyata keçirildiyi yerləri müəyyən edir və kənar şəxslərin həmin yerlərə gəlməsinə yol

vermәmәk vә Azәrbaycan Respublikasının dövlәt sәrhәdindәn qanunsuz keçmәyin qarşısını almaq mәqsәdilә orada әlavә rejim qaydaları qoyur.

Dәniz gәmilәrinin kapitanları, hava gәmilәrinin komandirlәri, dәmiryol qatarlarının rәislәri, vaqon bәlәdçilәri, avtomobil nәqliyyatı vasitәlәrinin sürücülәri onlara etibar edilmiş, xaricә gedәn nәqliyyat vasitәlәrindә şәxslәrin qanunsuz olmasına yol verdikdә Azәrbaycan Respublikasının qanunlarına müvafiq surәt dәmәsuliyyәt daşıyırlar.

# *IV Fәsil. Azәrbaycan Respublikası dövlәt sәrhәdinin qorunması*

## *Maddә 27. Azәrbaycan Respublikası dövlәt sәrhәdinin mühafizәsinin tәmin olunması*

*Azәrbaycan Respublikası dövlәt sәrhәdinin mühafizәsi Azәrbaycan Respublikasının milli tәhlükәsizliyinin tәmin edilmәsi sisteminin ayrılmaz tәrkib hissәsidir. Azәrbaycan Respublikasının dövlәt sәrhәdinin mühafizәsi dövlәt sәrhәdinin qanunsuz surәtdә dәyişdirilmәsinin qarşısının alınmasına; dövlәt sәrhәdi rejiminә, sәrhәdboyu rejimә vә dövlәt sәrhәdindәn buraxılış mәntәqәlәrindәki rejimә әmәl olunmasına; dövlәt sәrhәdindә dövlәtin, cәmiyyәtin vә şәxsiyyәtin digәr hәyati, mәnafelәrinin xarici vә daxili tәhlükәlәrdәn qorunmasına yönәlәn siyasi, hüquqi, iqtisadi, hәrbi, әmәliyyat, tәşkilati, texniki, ekoloji, sanitariya vә başqa tәdbirlәrin hәyata keçirilmәsi ilә tәmin edilir.*

*Azәrbaycan Respublikası dövlәt sәrhәdinin quruda, dәnizdә, çaylarda, göllәrdә vә digәr sututarlarda mühafizә olunması sәrhәd qoşunlarına, havada mühafizә olunması isә hava hücumundan müdafiә vә hәrbi hava qüvvәlәrinә hәvalә olunur. Sәrhәd qoşunları, hava hücumundan müdafiә vә hәrbi hava qüvvәlәri Azәrbaycan Respublikası dövlәt sәrhәdinin qorunması vәzifәlәrini yerinә yetirәrkәn bu Qanunu, Azәrbaycan Respublikasının başqa qanunvericilik aktlarını, Azәrbaycan Respublikasının dövlәtlәrarası müqavilәlәrini rәhbәr tuturlar.*

## *Maddә 28. Sәrhәd qarovulunun әsas vәzifәlәri vә hüquqları*

*Azәrbaycan Respublikasının dövlәt sәrhәdinin qorunması sahәsindә sәrhәd qoşunlarının vәzifәlәri vә hüquqları «Sәrhәd qoşunları haqqında» Azәrbaycan Respublikası Qanunu ilә, bu Qanunla vә Azәrbaycan Respublikasının başqa qanunvericilik aktları ilә müәyyәn edilir.*

## *Maddә 30. Xarici qeyri-hәrbi gәmilәr vә Azәrbaycan Respublikasına mәxsus qeyri-hәrbi gәmilәr barәsindә sәrhәd qarovulunun әsas hüquqları*

Azәrbaycan Respublikasının әrazi vә daxili sularında Azәrbaycan Respublikası dövlәt sәrhәdinin qorunması vәzifәlәrini yerinә yetirәrkәn *sәrhәd qoşunlarının* xarici qeyri-hәrbi gәmilәr vә Azәrbaycan Respublikasına mәxsus qeyri-hәrbi gәmilәr barәsindә aşağıdakı hüquqları var:

1) milli bayraq qaldırılmadıqda onu göstәrmәyi gәmiyә tәklif etmәk; gәminin Azәrbaycan Respublikası sularına girmәsinin mәqsәdlәri haqqında sorğu aparmaq;

2) gəmi üzmək üçün bağlı rayona üz tutduqda yolu dəyişdirməyi gəmiyə təklif etmək;

3) gəmi sorğu siqnallarına cavab vermədikdə, üzmək üçün bağlı rayonda olduqda, Azərbaycan Respublikasının sularına girməyin, bu sularda üzməyin və olmağın başqa qaydalarını pozduqda, habelə Azərbaycan Respublikasının qanunvericiliyini, Azərbaycan Respublikasının dövlətlərarası müqavilələrini və ya hamılıqla qəbul edilmiş beynəlxalq hüquq prinsiplərini və normalarını pozaraq ovla və ya başqa fəaliyyətlə məşğul olduqda gəmini dayandırmaq və yoxlamaq;

Gəminin yoxlanılmasına gəmi və naviqasiya sənədlərinin, heyət üzvlərinin və sərnişinlərin sənədlərinin, yüklər üçün sənədlərin, zəruri hallarda isə yüklərin və gəmi otaqlarının yoxlanması daxildir.

Gəmi yoxlandıqdan sonra ona müəyyənləşdirilmiş qaydalara əməl etməklə Azərbaycan Respublikasının sularında üzməyi davam etdirməyə icazə verilə bilər, yaxud Azərbaycan Respublikasının sularını tərk etmək təklif oluna bilər və ya gəmi bu Qanunun 31-ci maddəsinə müvafiq surətdə tutulub saxlana bilər;

4) zəruri hallarda gəmini limana və ya limandan Azərbaycan Respublikasının dövlət sərhədinədək müşayiət etmək üçün gəmidə sərhədçi dəstəsi yerləşdirmək;

5) cinayət törətmiş və Azərbaycan Respublikasının qanunlarına görə cinayət məsuliyyəti daşımalı olan şəxsləri gəmidən düşürmək və tutmaq, Azərbaycan Respublikasının dövlətlərarası müqavilələrində başqa hal nəzərdə tutulmadıqda, həmin şəxsləri təhqiqat və istintaq orqanlarına təhvil vermək.

***Maddə 31. Xarici qeyri-hərbi gəmilərin və Azərbaycan Respublikasına məxsus qeyri-hərbi gəmilərin sərhəd qarovulu tərəfindən tutulmasının əsasları***

Azərbaycan Respublikasının ərazi və ya daxili sularında olan xarici qeyri-hərbi gəmi aşağıdakı hallarda *sərhəd qoşunları* tərəfindən tutulur və ən yaxın limana və ya başqa müvafiq məntəqəyə müşayiət edilir:

1) gəmi Azərbaycan Respublikasının təhlükəsizliyi zərərinə məlumat toplamaqla məşğul olduqda və ya Azərbaycan Respublikasına qarşı düşmənçilik xarakteri daşıyan hər hansı başqa hərəkət etdikdə;

2) gəmi «Dəniz gəmiçilərinə bildirişlər»də elan edilmiş üzmək üçün bağlı rayonda olduqda;

3) gəmi müəyyən edilməmiş yerlərdə və ya müəyyən edilmiş yerlərdə, lakin Azərbaycan Respublikasının səlahiyyətli orqanlarının icazəsi olmadan adamları düşürdükdə və ya mindirdikdə, yükləri boşaltdıqda və ya qəbul etdikdə;

4) gəmi qanunsuz ovla, tədqiqat və ya axtarış fəaliyyəti ilə məşğul olduqda, adamların sağlamlığı və ya dənizin canlı ehtiyatları üçün zərərli maddələr, yaxud digər tullantılar və materiallar tökdükdə;

5) gəmi Azərbaycan Respublikası səlahiyyətli orqanlarının icazəsi olmadan uçuş aparatlarını havaya qaldırdıqda və ya göyərtəyə götürdükdə;

6) heyət üzvləri və ya gəmidə olan başqa şəxslər Azərbaycan Respublikasına məxsus sərhəd nişanlarını, naviqasiya sipəri vasitələrini, rabitə kabellərini, digər sualtı və suüstü obyektləri zədələdikdə;

7) gəminin kapitanı gəmi və yüklər üçün lazımi sənədlər təqdim etmədikdə;

8) gəmi *sərhəd qoşunları* nümayəndələrinin və ya Azərbaycan Respublikasının səlahiyyətli orqanları nümayəndələrinin sərəncamlarına tabe olmadıqda;

9) gəmi bu Qanunla müəyyən edilmiş qaydaları, Azərbaycan Respublikasının dövlətlərarası müqavilələrini və ya hamılıqla qəbul olunmuş beynəlxalq hüquq prinsiplərini və normalarını pozaraq Azərbaycan Respublikasının ərazi və ya daxili sularında olduqda.

Xarici qeyri-hərbi gəmini tutmaq haqqında qərarı *sərhəd qoşunları* onu yoxladıqdan sonra qəbul edir. Həm də bu maddənin 2-9-cu bəndlərində göstərilən pozuntulara yol vermiş gəmi yol verilən pozuntunun qəsdən törədildiyi müəyyən edildikdə və ya Azərbaycan Respublikasının təhlükəsizliyinə, yaxud başqa mənafelərinə zərər vurduqda *sərhəd qoşunları* tərəfindən tutulur.

Sərhəd qarovulu bu maddənin 2-9-cu bəndlərində nəzərdə tutulan pozuntulara yol vermiş Azərbaycan Respublikasının qeyri-hərbi gəmisini də tutmaq və onu ən yaxın limana və ya digər müvafiq məntəqəyə müşayiət etmək hüququna malikdir.

### ***Maddə 32. Gəminin yoxlanması və ya tutulması protokolu***

Qeyri-hərbi gəminin yoxlanması və ya tutulması barəsində protokol tərtib edilir; protokolu *sərhəd qoşunlarının* nümayəndəsi və yoxlanmış, yaxud tutulmuş gəminin kapitanı imzalayırlar.

Gəmi tutulduqda gəmi və yük sənədləri kapitandan alınır və protokola əlavə edilir. Yoxlanmış və ya tutulmuş gəminin kapitanı *sərhəd qoşunlarının* hərəkətlərini düzgün saymadıqda və ya protokolun məzmunu ilə razılaşmadıqda protokolun özündə və ya protokola əlavə edilən ayrıca sənəddə hər hansı dildə öz qeydini yaza bilər. Kapitan protokolu imzalamaqdan imtina etdikdə protokolda müvafiq qeyd yazılır.

### ***Maddə 33. Xarici qeyri-hərbi gəmilərin tutulmasının nəticələri***

Tutulmuş xarici qeyri-hərbi gəmilər müəyyən edilmiş qaydada müvafiq xarici dövlətlərin səlahiyyətli nümayəndələrinə təhvil verilir, yaxud Azərbaycan Respublikasının ərazi sularından çıxarılır və ya Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş hallarda məhkəmənin qərarı ilə müsadirə edilir.

### ***Maddə 34. Azərbaycan Respublikasının sularında üzmək və olmaq qaydasını pozmuş xarici hərbi gəmilərə tətbiq edilən qaydalar***

Azərbaycan Respublikasının qanunlarını və ya Azərbaycan Respublikasının ərazi və daxili sularında üzmək və olmaq qaydalarını pozmuş xarici hərbi gəmilər barəsində *müvafiq icra hakimiyyəti orqanının* müəyyən etdiyi xüsusi qaydalar tətbiq olunur.

### ***Maddə 35. hava hücumundan müdafiə qoşunlarının vəzifələri və hüquqları***

Azərbaycan Respublikası dövlət sərhədinin qorunması sahəsində hava hücumundan müdafiə qoşunlarının vəzifələri və hüquqları bu Qanunla və Azərbaycan Respublikasının digər normativ aktları ilə müəyyən edilir.

### *Maddə 36. Azərbaycan Respublikası dövlət sərhədinin qorunması zamanı silahın və döyüş texnikasının tətbiqi*

Sərhəd qarovulu və hava hücumundan müdafiə qoşunları Azərbaycan Respublikasının dövlət sərhədini qoruyarkən silahı və döyüş texnikasını tətbiq etmək hüququna malikdirlər. Zəruri hallarda Azərbaycan Respublikası dövlət sərhədinin qorunması zamanı Azərbaycan Respublikası Silahlı Qüvvələrinin başqa növlərinin silahı və döyüş texnikası tətbiq edilə bilər.

### *Maddə 37. Sərhəd qarovulunun silah və döyüş texnikası tətbiq etməsi qaydası*

*1) Sərhəd qoşunları Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsi sahəsində vəzifələrini yerinə yetirərkən, Azərbaycan Respublikasının dövlət sərhədində real və potensial təhdidləri dəf etmək, sərhədboyu zonada əhalini, mülkiyyəti bu cür əməllərdən qorumaq, onların qarşısını almaq üçün silah və döyüş texnikası tətbiq edir.*

Sərhəd qarovulu silahı və döyüş texnikasını aşağıdakı hallarda da tətbiq etmək hüququna malikdir:

~~a) Azərbaycan Respublikasının dövlət sərhədini pozanların silahlı basqınlarını dəf etmək və silahlı müqavimətini qırmaq üçün;~~

*a)* sərhədçilərin və ya əhalinin həyatı üçün təhlükə olduqda və bu təhlükəni başqa vasitələrlə sovuşdurmaq mümkün olmadıqda silahlı şəxslərin basqınını dəf etmək və müqavimətini qırmaq üçün;

*b)* Azərbaycan Respublikasının dövlət sərhədini pozanlar həmsərhəd dövlətin ərazisində gizlənməyə və ya Azərbaycan Respublikası ərazisinin içərilərinə soxulmağa cəhd göstərərkən onu tutmaq üçün başqa imkanlar kömək etmədikdə;

*v)* Azərbaycan Respublikasının dövlət sərhədini pozmaq üstündə tutulmuş şəxslər qaçmağa cəhd göstərdikdə və bunun qarşısını başqa vasitə ilə almaq mümkün olmadıqda;

*q)* əhalinin, dövlət mülkiyyətini və vətəndaşların şəxsi əmlakını silahlı basqından, silahlı və ya digər fitnələrdən qorumaq üçün başqa tədbirlər nəticə vermədikdə;

*«a», «b», «v», «q» yarımbəndlərində* nəzərdə tutulan hallarda silah və döyüş texnikası bu şərtlə tətbiq edilir ki, sərhədi pozan «dayan» çağırışından və havaya xəbərdarlıq atəşindən sonra *sərhəd qoşunlarının* tələblərini yerinə yetirməsin.

*Azərbaycan Respublikasının dövlət sərhədini pozan şəxslərin silahlı basqınlarını dəf etmək və silahlı müqavimətini qırmaq, sərhədçilərin və ya əhalinin həyatı üçün real təhlükə yaradan qəfil hücum baş verərsə, habelə hücum zamanı silahdan, döyüş texnikasından, mexaniki nəqliyyat vasitələrindən istifadə olunarsa, həmin hücumu dəf etmək üçün sərhəd qoşunlarının hərbi qulluqçuları xəbərdarlıq etmədən silah və döyüş texnikasını tətbiq edə bilərlər.*

*İnsana qarşı silah yalnız son zərurət və ya zəruri müdafiə vəziyyətində, bütün digər təsir imkanlarından istifadə lazımi nəticə vermədikdə, hüquqpozmanın ağırlıq dərəcəsindən və ya onu törədənin şəxsiyyətindən asılı olaraq tətbiq edilməlidir.*

*Sərhəd qoşunlarının hərbi qulluqçuları həyat və sağlamlıqları üçün təhlükə yaradan yırtıcı, vəhşi və ya başqa heyvanların zərərsizləşdirilməsi üçün, həmçinin təhlükə və ya xəbərdarlıq siqnalı verildikdə, habelə yardım çağrıldıqda silahdan istifadə edə bilərlər.*

*Silahın tətbiq edilməsi barədə 24 saat ərzində müvafiq prokurora yazılı məlumat verilməlidir.*

2) Azərbaycan Respublikasının ərazi və daxili sularında *sərhəd qoşunlarının* gəmiləri (katerləri) özlərinə və Azərbaycan Respublikasının başqa gəmilərinə silahlı basqını dəf etmək və ya xarici gəmilərin Azərbaycan Respublikasının sahilboyuna, Azərbaycan Respublikasının sualtı və suüstü obyektlərinə qarşı aşkar düşmənçilik hərəkətlərinə son qoymaq üçün silah tətbiq edir, habelə aşağıdakı hallarda silah tətbiq etmək hüququna malikdirlər:

a) Azərbaycan Respublikasının dövlət sərhədini pozan gəmilər Azərbaycan Respublikasının ərazi və daxili sularında dayandırılarkən və tutularkən silahlı müqavimət göstərdikdə bu müqavimətə son qoymaq üçün;

b) Azərbaycan Respublikasının dövlət sərhədini pozan gəmi və ya Azərbaycan Respublikasının qanunlarını, yaxud Azərbaycan Respublikasının sularında üzmək və olmaq qaydalarını pozan gəmi dayanmaq barəsində tələbləri yerinə yetirmədikdə, bu gəmi gizlənməyə cəhd göstərərkən onu dayandırmaq üçün başqa imkanlar kömək etmədikdə. Bu halda silah xəbərdarlıq atəşindən (güllə qatarı buraxıldıqdan) sonra tətbiq edilir.

3) *sərhəd qoşunlarının* təyyarələri və vertolyotları qoşun qruplarının və quldur dəstələrinin Azərbaycan Respublikası ərazisinə silahlı basqınını və təcavüzünü dəf etmək, Azərbaycan Respublikasının dövlət sərhədində silahlı fitnələrin qarşısını almaq üçün silah tətbiq edirlər.

Azərbaycan Respublikasının ərazi və daxili sularında sərhəd aviasiyası aşağıdakı hallarda, silah tətbiq etmək hüququna malikdir:

a) *sərhəd qoşunlarının* gəmilərinə (katerlərinə), Azərbaycan Respublikasının başqa gəmilərinə silahlı basqın zamanı onlara basqını dəf etməkdə kömək göstərmək üçün, xarici gəmilərin Azərbaycan Respublikası sahilboyuna Azərbaycan Respublikasının sualtı və suüstü obyektlərinə qarşı aşkar düşmənçilik hərəkətlərinə son qoymaq üçün və ya Azərbaycan Respublikasının dövlət sərhədini pozan gəmilərin silahlı müqavimətini qırmaq üçün;

b) Azərbaycan Respublikasının dövlət sərhədini pozanlar həmsərhəd dövlətin ərazisində gizlənməyə cəhd göstərərkən onları tutmağın başqa imkanları kömək etmədikdə. Bu halda silah xəbərdarlıq atəşindən (güllə qatarı buraxıldıqdan) sonra tətbiq edilir.

4) *sərhəd qoşunları* Azərbaycan Respublikasının dövlət sərhədini pozan hava gəmilərinə və başqa uçuş aparatlarına, xarici hərbi gəmilərə, o cümlədən sualtı qayıqlara qarşı silahı

və döyüş texnikasını *müvafiq icra hakimiyyəti orqanının* müəyyənləşdirdiyi qaydada tətbiq edir;

5) Azərbaycan Respublikasının hava hücumundan müdafiə qoşunları, hərbi-dəniz donanması, Silahlı Qüvvələrin başqa hissələri və bölmələri xarici dövlətlərin qoşun qruplarının və quldur dəstələrinin Azərbaycan Respublikası ərazisinə silahlı basqınını dəf etməkdə, Azərbaycan Respublikasının dövlət sərhədində silahlı fitnələrin qarşısını almaqda *sərhəd qoşunlarına* kömək göstərərkən, habelə Azərbaycan Respublikasının dövlət sərhədini pozan hava gəmilərinə və başqa uçuş aparatlarına, xarici hərbi gəmilərə, o cümlədən Azərbaycan Respublikasının ərazi və daxili sularında sualtı vəziyyətdə aşkar edilmiş sualtı qayıqlara qarşı silahı və döyüş texnikasını *müvafiq icra hakimiyyəti orqanının* müəyyənləşdirdiyi qaydada tətbiq edirlər;

6) silah tətbiq edilərkən güllələrin və mərmilərin həmsərhəd dövlətlərin ərazisinə düşməsinə bir qayda olaraq, yol verilmir; Azərbaycan Respublikasının ərazisinə xarici dövlətlərin qoşun qruplarının və quldur dəstələrinin silahlı basqınının və təcavüzünün dəf edilməsi, silahlı fitnələrin və Azərbaycan Respublikasının dövlət sərhədini pozan silahlılarla toqquşmaların qarşısının alınması halları istisna təşkil edir;

silahı qanunsuz tətbiq etmiş şəxslər Azərbaycan Respublikasının qanunlarına müvafiq surətdə intizam və ya cinayət məsuliyyətnə cəlb edilirlər;

7) *sərhəd qoşunlarının* aşağıdakı hallarda silah tətbiq etməsi qadağandır:

a) Azərbaycan Respublikasının dövlət sərhədini sərhədçilərin gözü qabağında pozan şəxslərə qarşı; bu şərtlə ki, həmin pozuntular Azərbaycan Respublikasının dövlət sərhədi yaxınlığında kənd təsərrüfatı işlərinin və başqa işlərin (ov, mal-qara otarılması, giləmeyvə dərilməsi, yanacaq toplanması və i. a.) görülməsi ilə bağlı olsun, habelə çimmək və ya motorlu, motorsuz gəmilərdə üzmək zamanı törədilmiş olsun;

b) sərhədboyu rejimi və Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindəki rejimi pozmaq üstündə tutulmuş şəxslər qaçmağa cəhd göstərdikdə, bu şərtlə ki, Azərbaycan Respublikası dövlət sərhədinin onlar tərəfindən real pozulması təhlükəsi olmasın;

v) Azərbaycan Respublikasının ərazi və daxili sularında ovla məşğul olan xarici balıqçılıq və digər ov gəmilərinə qarşı, bu şərtlə ki, onlar silahlı müqavimət göstərməsinlər

q) sərhədboyu zonanın yolları, Azərbaycan Respublikasının dövlət sərhədinə və ya Xəzər dənizinin *sərhəd qoşunları* tərəfindən qorunan sahilboyuna bitişik rayonların, şəhərlərin, qəsəbələrin, kəndlərin ərazisi ilə gedən və *sərhəd qoşunlarının* dayanmaq tələbini yerinə yetirməyən avtomotonəqliyyat vasitələrinə qarşı, bu şərtlə ki, Azərbaycan Respublikası dövlət sərhədinin real pozulma təhlükəsi olmasın;

ğ) Azərbaycan Respublikasının dövlət sərhədini keçən heyvanlara qarşı.

### ***Maddə 37-1. Sərhəd qoşunları tərəfindən xüsusi vasitələrdən istifadə edilməsi***

*Sərhəd qoşunlarının hərbi qulluqçuları Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsi sahəsində vəzifələrini yerinə yetirərkən xüsusi vasitələrdən istifadə edə bilərlər. Sərhəd qoşunlarının istifadəsində olan xüsusi vasitələrin siyahısı və onlardan istifadə edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.*

## *V Fəsil. Azərbaycan Respublikası dövlət sərhədinin qorunmasında Azərbaycan Respublikası dövlət orqanlarının, ictimai təşkilatlarının və vətəndaşlarının iştirakı*

### *Maddə 38. Azərbaycan Respublikası dövlət sərhədinin qorunmasında dövlət orqanlarının, ictimai təşkilatların və vətəndaşların iştirakı*

Dövlət orqanları, ictimai təşkilatlar, vəzifəli şəxslər Azərbaycan Respublikası dövlət sərhədinin qorunmasında *sərhəd qoşunlarına* hərtərəfli kömək göstərməlidirlər.

Azərbaycan Respublikasının dövlət sərhədi Azərbaycan Respublikası vətəndaşlarının fəal iştirakı ilə qorunur. Dövlət orqanları və ictimai təşkilatlar Azərbaycan Respublikasının dövlət sərhədinin qorunmasına Azərbaycan Respublikası vətəndaşlarının könüllülük əsasında cəlb olunmasında sərhəd qoşunlarına kömək edirlər.

### *Maddə 39. Azərbaycan Respublikası dövlət sərhədinin qorunmasını təmin etməklə əlaqədar dövlət orqanlarının, ictimai təşkilatların, vəzifəli şəxslərin, vətəndaşların vəzifələri*

Dövlət orqanları, ictimai təşkilatlar vəzifəli şəxslər, habelə vətəndaşlar Azərbaycan Respublikasının dövlət sərhədi rejiminə əməl etməli, sərhədboyu rejimin və Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrində rejimin tələblərini yerinə yetirməlidirlər.

Dövlət orqanları, ictimai təşkilatlar və vəzifəli şəxslər Azərbaycan Respublikası dövlət sərhədinin qorunmasının hərbi siyasi və iqtisadi əhəmiyyətini vətəndaşlara izah etmək, sərhədboyu zonada, sərhədboyu zolaqda və Azərbaycan Respublikasının dövlət sərhədinə və ya Xəzər dənizinin *sərhəd qoşunları* tərəfindən qorunan sahilboyuna bitişik ərazidə, habelə Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrində mütəşəkkilliyi və qaydanı qorumaq sahəsində daim iş aparmalıdırlar.

## *VI Fəsil. Azərbaycan Respublikasının dövlət sərhədi haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət*

### *Maddə 40. Azərbaycan Respublikasının dövlət sərhədi haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət*

Azərbaycan Respublikasının dövlət sərhədini, sərhəd rejimini, sərhədboyu rejimi və ya Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrində rejimi pozmaqda və ya pozmağa cəhd göstərməkdə, yükləri, materialları, sənədləri və başqa əşyaları Azərbaycan Respublikasının dövlət sərhədindən qanunsuz keçirməkdə və ya qanunsuz keçirməyə cəhd göstərməkdə, habelə Azərbaycan Respublikasının dövlət sərhədi haqqında qanunvericiliyin başqa şəkildə pozulmasında təqsiri olan şəxslər Azərbaycan

Respublikasının qanunvericiliyinə müvafiq surətdə cinayət məsuliyyəti, inzibati və ya başqa məsuliyyət daşıyırlar.

***Azərbaycan Respublikasının Prezidenti***

***A. MÜTƏLLİBOV***

***Bakı şəhəri, 9 dekabr 1991-ci il***

***№ 13***

***«Həyat» qəzetində dərc edilmişdir (14 yanvar 1992-ci il, № 9) («VneshExpertService»).***

***20 iyun 1995-ci il tarixli, 1066 nömrəli; 23 iyun 1998-ci il tarixli, 509-IQ nömrəli; 30 dekabr 2003-cü il tarixli, 568-IIQD nömrəli; 5 mart 2004-cü il tarixli, 597-IIQD nömrəli qanunlara əsasən dəyişikliklər və əlavələrlə («VneshExpertService»).***

---

*© VneshExpertService*